**Təranə Buta qızı Sadıqova,**
ADPU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAĞIN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA VALİDEYNLƏRİN PEDAQOJİ TAKTININ ROLU

**Тарана Бута кызы Садыгова ,**
доцент АДПУ, доктор философских наук по педагогике,

# РОЛЬ ПЕДАГОГИЧЕСКОГО ТАКТА РОДИТЕЛЕЙ В ВОСПИТАНИИ ДОШКОЛЬНИКА КАК ЛИЧНОСТЬ

**Tarana Buta Sadigova,**
associate professor of ADPU, doctor of philosophy in pedagogy,

# THE ROLE OF PARENT'S PEDAGOGICAL TACT IN THE EDUCATION OF THE PRESCHOOL CHILD AS A PERSONALITY

**Xülasə:** Məqalədə ailənin– bu kiçik sosial qrupun uşaqlar üçün ilk həyat məktəbi olması aqqında söhbət gedir. Valideynlər onların ilk müəllimləri və tərbiyəçiləridir. Şəxsiyyətin formalaşmasına onların təsiri xüsusilə böyükdür. Uşağa valideynlərin əsas təsiri sevgidə və qayğıda vahidliyə əsaslanır.Bu bağlılıq və qayğı uşağın tərbiyəyə yönümlülüyünə, valideyn nüfuzunun tanınmasına və uşağın valideyni təqlid etmə xüsusiyyətinə cavab verir. Bu nöqteyi-nəzərdən valideynlərin pedaqoji taktı məktəb yaşına çatmamış uşaqların şəxsiyyət kimi tərbiyə olunmasında mühüm rol oynayır.
***Açar sözlər:*** *məktəbəqədər təhsilin proqramı, məktəbəqədər yaş, uşaq, tərbiyə, pedaqoji takt, valideyn;*

**Резюме :** В статье рассказывается о том, что семья, эта маленькая социальная группа – первая школа жизни для детей. Родители – его первые учителя и воспитатели. Их влияние на формирование личности исключительно велико. Главное влияние родителей на ребенка – это единство в любви и заботы своих детей. Эта привязанность и забота отвечают приверженности ребенка воспитанию, признанию его репутации и способности подражать им. С этой точки зрения педагогический такт родителей играет важную роль в воспитании дошкольников как личность.
***Ключевые слова**: программа дошкольного образование (куррикулум), дошкольный возраст, ребенок, воспитание, педагогический такт, родитель;*



**Summary :** The newest person in the family, the first embodiment of society, is born. This male social group is the first life school for kids. Parents are his first teachers and educators. Their influence on the formation of personality is exceptionally large. The parent's main impact on the child is the unity of their children's love and care. This affection and care responds to the child's commitment to parenting, recognition of their reputation, and the ability to imitate them. From this point of view pedagogical parenting plays an important role in educating preschool children.
***Key words:*** *preschool education program (curriculum), preschool, child, upbringing, pedagogical tactics, parents.*

Pedaqoji prosesin humanistləşdirilməsi, müxtəlif fəaliyyət növlərində və gündəlik həyatda tərbiyəçi-uşaq münasibətlərinin dəyişməsi, ünsiy-

yətin demokratik üslubuna keçilməsi baxımından tərbiyənin şəxsiyyətyönümlü modelinin qurulması böyük əhəmiyyət kəsb edir.

Hazırda məktəbəqədər müəssisələrdə pedaqoji prosesin müasir tələblərə uyğun təşkilində məktəbəqədər təhsilin proqramı mühüm rol oynayır. Bu proqram şəxsiyyətyönümlü xarakter daşıyır. Şəxsiyyətyönümlülük proqramın məqsəd və məzmunu ilə bağlı olub, cəmiyyət üçün yararlı şəxsiyyətin formalaşdırılmasının yerinə yetirilməsini təmin edir.

Tərbiyədə məktəbəqədər müəssisələrin aparıcı rolunun artması uşaq şəxsiyyətinin formalaşmasında ailənin əhəmiyyətini azaltmır.V.A.Suxomlinski ailənin tərbiyə imkanlarını insan gözəlliyini doğuran sehrli qüvvə ilə müqayisə etmişdir. Cəmiyyətin ilk özəyi olan ailədə yeni insan dünyaya gəlir. Bu kiçik sosial qrup uşaq üçün ilk həyat məktəbidir. Valideynlər onun ilk müəllimləri və tərbiyəçiləridirlər. Şəxsiyyətin formalaşmasına onların təsir gücü müstəsna dərəcədə böyükdür. Valideynlərin uşaqlara başlıca təsiri onların övlada məhəbbəti, tələbkarlıqla qayğıkeşliyin vəhdətidir. Bu məhəbbət və qayğıya uşaq valideynlərinə bağlılıq hissi ilə, onların nüfuzunun tanınması, təqlidetmə səyi ilə cavab verir. Bu baxımdan məktəbəqədər yaşlı uşaqların tərbiyəsində valideynlərin pedaqoji taktı mühüm rol oynayır. Pedaqoji takt uşağın hisslərinə, şüuruna daha yaxın və düzgün yol tapmaq, onun fərdi xüsusiyyətlərini nəzərə alaraq şəxsiyyətinə təsirin daha səmərəli metodlarını seçmək bacarığı deməkdir. ("*Takt*"– yunan sözü olub, *ölçü* deməkdir.) K.D.Uşinski belə hesab edirdi ki, pedaqoji takt – mehribanlıq və ciddiliyin, tələbkarlıq və xeyirxahlığın yaxşı inkişaf etdiyi ölçü hissidir.

Pedaqoji takt pedaqoji ustalığın mühüm hissəsidir və hər bir valideyn buna yiyələnə bilər. Vaxtında deyilən söz, mühakimə, rəğbətləndirmə, düzgün intonasiya, müvafiq ifadəs, düzgün jest – bütün bunlar pedaqoji taktın təzahür formalarıdır və uşaqlara tərbiyəvi təsirin müvəffəqiyyəti üçün böyük əhəmiyyət kəsb edir. Bütün bunlar, bəzi valideynlərin düşündükləri kimi, aktyorluq deyil. Əksinə, pedaqoji taktın təzahürünün zahiri formaları tərbiyə işində faydalıdır.

Pedaqoji texnikanın vacib elementlərindən biri də uşağa sözlə təsir etməyi bacarmaqdır. Söz – pedaqoji işin zərif və mürəkkəb vasitələrindən biridir. Çin atalar sözündə deyilmişdir: "Söz insan ürəyinin açarıdır".

Min illər ərzində insanlar böyüməkdə olan nəslə nəyin yaxşı, nəyin pis olduğunu məhz söz vasitəsilə aşılamışlar. "Söz insanın vuran əlidir", "Yaxşı söz baldan şirin olar", "Şirin dil ilanı da yuvasından çıxarar", "Söz qılıncdan itidir", "Qılınc yarası sağalar, söz yarası sağalmaz" deyən ulu babalarımız tərbiyə işində sözün təsir qüvvəsindən həmişə məharətlə istifadə etmişlər.

Söz böyük tərbiyəvi qüvvəyə malikdir, lakin tərbiyə yalnız şifahi xarakter daşıyarsa, o heç vaxt müsbət nəticə verməz.Təəssüf ki, pedaqoji takta malik olmayan valideynlər pedaqoji söhbətlərə əhəmiyyət vermir, uşaqlarını düzgün tərbiyə etmirlər.

Valideynlərin pedaqoji taktı yalnız ailədə bir-biri ilə və uşaqlarla qarşılıqlı münasibətlər əsasında deyil, həm də onların davranışları, başqa adamlara münasibəti əsasında yaranır. Valideynlərin bu davranışı məktəbəqədər yaşlı uşaqlara güclü tərbiyəvi təsir göstərir, çünki bu dövrdə onların təfəkkürü konkret-obrazlı xarakter daşıyır, həyatında emosiyalar böyük rol oynayır. Valideynlərin davranışı uşaqlarda həm müsbət əxlaqi keyfiyyətlərin (həssaslıq, diqqət, düzlük, doğru danışmaq, cəsarətlilik, prinsipiallıq) inkişafına, möhkəmlənməsinə, həm də mənfi xüsusiyyətlərin formalaşmasına təsir göstərə bilər.

Uşaqları tanımaq, onların daxili aləminə, qəlbinə həssaslıqla nüfuz etmək valideynlərin pedaqoji taktının mühüm şərtidir. Çox vaxt pedaqoji taktın pozulmasının səbəbi uşaqların davranış motivlərini başa düşməmələri ilə bağlı olur.

Pedaqoji taktın pozulmasının bir səbəbi də valideynlərin uşaqlara ancaq tərbiyə obyekti kimi baxmalarıdır. A.S.Makarenko deyirdi: "Uşaqlar canlı, gözəl, həyatidirlər və ona görə də onlara yoldaş, vətəndaş kimi yanaşmaq, onların hüquq və vəzifələrini, sevinclərini görmək, hörmət etmək lazımdır". Uşaqların davranış motivlərini öyrənmək istəməmək, övladlarının həyatında baş verən əhə-

miyyətli yaş dəyişikliklərini nəzərə almadan müəyyən olunmuş yanlış münasibət çox vaxt valideyn və uşaqlar arasında ciddi münaqişələrə, hər iki tərəfin həyəcanına səbəb olur.

Prof. Y.Ş.Kərimov haqlı olaraq yazır: "Uşağı sevmək azdır, onu tanımaq son dərəcə vacibdir. Hər bir insan, o cümlədən, uşaq təkrarolunmazdır. Uşaqların hər birində özünəməxsus xüsusiyyət və qabiliyyətlər var. Onları vaxtında aşkara çıxarıb, inkişaf etdirmək lazımdır"(1). Ona görə də onların xarakter xüsusiyyətlərinin ailə tərbiyəsində nəzərə alınması, uşaqları yaxşı tanımaq, başa düşmək tələblərin düzgünlüyünü təmin edir.

Pedaqoji taktın pozulması, məhəbbət və tələbkarlıqda ölçü hissinin gözlənməməsi valideynlərlə uşaqlar arasında qarşılıqlı münasibətlərin mürəkkəbləşməsinə, tərbiyəvi təsirin azalmasına səbəb olur. Bəzi ailələrdə uşaqların bütün istəklərinin qeyd-şərtsiz yerinə yetirilməsi tərbiyədə ciddi nöqsanlara səbəb olur.

Uşağa məhəbbət çox ciddi və gözəl insani hissdir.O, ailədə xoşbəxtliyi, sevinci təmin edir, valideynləri fəaliyyətə ruhlandırır, qəm-kədərə qalib gəlməyə kömək edir. Valideynlərin məhəbbəti və nəvazişi ilə uşaqlar gülərüz, həyatsevər olur, öz güclərinə inanırlar.

"Uşağını sevməyən valideyni uşaq da sevmir. Maraqlıdır, görəsən, biz həmişə uşağı sevə bilirikmi? Əgər seviriksə, bu qədər qaraqabaq, heç kəsə yovuşmayan, heç kəsdən xoşu gəlməyən, özlərini tənha hesab edən uşaqlar necə meydana gəlirlər? Unutmayaq ki, dünyada bütün xeyirxahlıqlar məhəbbətdən, bütün pisliklər isə qorxudan irəli gəlirlər? Qorxuya ancaq məhəbbətlə qalib gəlmək mümkündür".(1) Bununla belə, ailənin maraqları və uşaqların gələcəyi naminə bu güclü hiss həddini aşmamalıdır.

İlk növbədə, uşaqlarda valideynlərə xoşbəxtlik bəxş etmək səyi tərbiyə olunmalıdır. Bu da onlarda başqa insanlara həssaslıq, humanizm, qayğıkeşliyin inkişafına kömək göstərəcək. Uşaqlar valideynlərin xoşbəxtliyi haqqında nə qədər çox düşünsələr, o qədər də onların tələblərini təmin etməyə çalışacaqlar. Beləliklə, onlarda müsbət əxlaqi keyfiyyətlər formalaşacaq. Uşağın anasına, ailəsinə bağlılığı, həssas, mehriban münasibəti onda başqa adamlara da həssas, diqqətli olmaq tələbatını doğurur.

A.S.Makarenko demişdir: "İnsana daha çox hörmət etməli,daha çox tələblər verməli". Uşağın yaşından asılı olmayaraq, valideyn ona hörmət etməyə, onunla hesablaşmağa borcludur, eyni zamanda, ona qarşı tələbkar olmalı, qüsurlarına göz yummamalıdır. Uşağın şəxsiyyətinə hörmət tələbkarlıqla birləşmədikdə, o, həddən artıq əzizləndikdə şıltaqlıq edir, eqoist böyüyür.

Uşaqlar valideynlərin iradəsinin zəifliyini gördükdə göz yaşları, qışqırmaq, ayaqlarını yerə döyməklə istəklərinin yerinə yetirilməsinə nail olurlar. Valideyn nə qədər möhkəm iradə nümayiş etdirərsə, uşağın şıltaqlıqlarının qarşısını bir o qədər almış olar. Bu zaman uşaq ana-atanın iradəsinə tabe olmağa alışır.

Valideynin yüksək tonla müraciəti də uşağa pis təsir edir. Bu, valideynin köməksizliyi və pedaqoji taktının olmamasından irəli gəlir.Uşaqlara müraciətin tonu müəyyən hisslərlə ifadə olunmalıdır.Valideynin uşağa müraciət tonu acıqlı, kinayəli olmamalı, onda ciddilik, məsuliyyət hissi yaratmalıdır. Uşaq valideynin göstərişinin yerinə yetirilməsinin vacibliyinə şübhə etməməlidir.

Valideynin uşağa müraciətində tələbkarlıq tonu hər bir konkret şəraitə, hərəkətin xarakterinə, uşağın fərdi xüsusiyyətlərinə uyğun olmalıdır. Əgər uşaq təsadüfən bahalı bir qabı sındırıbsa, valideynin müraciət tonunda təəssüf ifadə olunmalı, həmin əşyanın dəyərliliyi ona çatdırılmalıdır. Belə güclü təəssüf hissi ilə ounan müraciət uşağa daha güclü təsir edəcək. Əgər uşaq qəsdən, bilərəkdən pis bir hərəkətə yol verirsə, valideyn ona acıqlı və qətiyyətli tonda müraciət edə bilər.

Ümumiyyətlə, tərbiyə prosesində fərdi xüsusiyyətlərin nəzərə alınması fikri həmişə müsbət qiymətləndirilmişdir. A.A.Bakıxanov qeyd etmişdir: "İnsanlar şəkil, simaca bir-birindən fərqli olduqları kimi, əxlaqca da müxtəlifdirlər. Dünyada iki nəfər tapılmaz ki, onların əxlaqı bir-birinə oxşasın. Hər kəsin hər işdə əlahiddə rəyi vardır."(2)

N.Nərimanov yazırdı: “Hər uşağın özünə görə qeyri-xüsusiyyəti, təbiəti olmağına binaən hamıya eyni qayda və qanun ilə dərs vermək, hamıya bir dil ilə bəyan etmək olmaz. Hamını bir ölçü ilə ölçmək olmaz. Uşaqların bir parası zehnsiz, fəhmsiz, bir parası müdhiş hekayələr sevən, bir parası gülünc və fərəhli nağıllardan həzz alan olurlar”.(3) O, uşağın tərbiyəsi ilə məşğul olarkən fərdi xüsusiyyətləri nəzərə almağı məsləhət görürdü. Ona görə də valideyn uşağın fərdi xüsusiyyətlərini öyrənməli, onu fəaliyyətin bütün növlərində (oyun, əmək, təlim), evdə, məktəbdə, gəzinti zamanı müşahidə etməlidir. Bu baxımdan oxunmuş əsər haqqında müsahibənin aparılması da faydalıdır.

K.D.Uşinski yazırdı: “Əgər pedaqogika insanı hər cəhətdən tərbiyə etmək istəyirsə, o, əvvəlcə onu bütün cəhətlərdən öyrənməlidir”.(4)

“Valideyn uşağı düzgün tərbiyə etmək, onun fərdi xüsusiyyətlərini dərindən öyrənmək üçün məktəblə müntəzəm əlaqə saxlamalı, eyni zamanda məktəb də ailəni pedaqoji cəhətdən istiqamətləndirməli, valideynlərə müntəzəm məsləhətlər verməli, onlar üçün pedaqoji yeniliklərə dair maraqlı tədbirlər həyata keçirməlidir.” (5)

Uşaqlarla danışıq və tələbkarlıq tonu onların yaş xüsusiyyətlərinə uyğun olmalıdır. Tərbiyə işində yaş xüsusiyyətlərinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Valideyn uşağın diqqətini, hafizəsini, tolerantlığını nəzərə almalı, onun anlaq səviyyəsinə və gücünə müvafiq tapşırıq verməyə çalışmalıdır. A.S.Makarenko qeyd edirdi: “İnsanın gələcəkdə necə olması onu beş yaşına kimi necə tərbiyə etmiş olduğunuzdan asılıdır. Siz uşağı beş yaşınadək lazım olduğu qədər tərbiyə etməsəniz, sonra yenidən tərbiyələndirmək lazım gələcəkdir. Adama belə gəlir ki, beş yaşınadək uşağın həyatında böyük hadisə ola bilməz. Valideynlərə elə gəlir ki, hər iş öz qaydasında gedir. On-on bir yaşında isə hər şey gözlənilmədən pis tərəfə dəyişir və yaramaz tərbiyə acı məhsulunu göstərməyə başlayır. Valideynlər isə fikirləşirlər: Görəsən, uşağı kim korlamışdır? Halbuki uşağı onlar özləri, birinci ildən başlayaraq beşinci ilədək müntəzəm surətdə korlayıblar.”

Pedaqoji texnologiyaların mühüm elementlərindən biri də tərbiyə prosesində oyun priyomlarından istifadə edilməsidir. A.S.Makarenko demişdir: “Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun o qədər vacib və əhəmiyyətlidir. Uşaq oyunda necədirsə, sonra həyatda da bir çox cəhətdən elə olacaqdır. Ona görə gələcək xadimin tərbiyəsi, hər şeydən əvvəl, oyun prosesində keçir”. (2)

Uşaq ilk müstəqil fəaliyyətə oyun vasitəsilə başlayır, oyun həm də onu təlimə və əməyə hazırlayır.Ona görə də A.S.Makarenko valideynlərə uşaqların tərbiyəsində oyun priyomlarından istifadə etməyi məsləhət görürdü. Xüsusilə, kiçik yaşlarda uşaqlarda tərslik və şıltaqlığın qarşısının alınmasında oyundan müvəffəqiyyətlə istifadə etmək olar.

Tələbkarlığın formalarından və pedaqoji taktın təzahürünün mühüm şərtlərindən biri də uşağa inamdır. İnam heç bir halda tələbkarlığa qarşı olmamalıdır. Valideynlərin tapşırıqlarının və gün rejiminin icrasına nəzarətdə inam xüsusilə vacibdir.

Valideynlər bilməlidirlər ki, uşaqlarda intizamlılıq, əməksevərlik və s. müsbət keyfiyyətlərin tərbiyəsində, onların gümrah böyümələrində rejimin böyük əhəmiyyəti vardır.

A.S.Makarenko qeyd edirdi: “Mənim zənnimcə, intizam tərbiyə vasitəsi deyil, tərbiyənin nəticəsidir və bir tərbiyə vasitəsi olaraq, rejimdən seçilməlidir. Rejim tərbiyəyə yardım edən vasitə, həmçinin metodların müəyyən sistemidir”.(2)

Valideyn çalışmalıdır ki, uşaqda öz qüvvə və imkanlarına inam yaratsın. İnam uşaqlara verilən tapşırıqları təşəbbüskarlıqla. yaradıcı şəkildə icra etməyə yönəldir.İnama əsaslanan tələbkarlıq uşaqlarda müstəqillik, təşəbbüskarlıq, özünəinam, hazırcavablıq və s. müsbət keyfiyyətlər tərbiyə edir.

Ata və ana fəaliyyət zamanı uşağa hörmət edilməsinə, ona etimad göstərilməsinə diqqət yetirməli, uşağın müstəqillik səylərini qiymətləndirməlidir.

Ailədə ikinci övlad dünyaya gələrkən pedaqoji taktı gözləmək, uşaqlara münasibətdə düzgün tonu saxlamaq xüsusilə vacibdir. Çox vaxt valideynlərin yeni dünyaya gələn körpənin qayğılarına başları qarışdığından digər uşaq diqqətdən kənarda qalır, bununla da pedaqoji takt pozulur. Bu isə

həmin uşaqlarda sözə baxmamağa, inamsızlığa gətirib çıxarır və onların qəlbində dərin inciklik qalır. Valideynlər bilməlidirlər ki, uşaqların kollektivçilik ruhunda tərbiyəsində ailə böyük rol oynayır.

A.S.Makarenko qeyd edirdi: "...qəti surətdə demək olar ki, tək bir oğlu, yaxud tək bir qızı tərbiyə etmək bir neçə uşağı tərbiyə etməkdən xeyli ağır və daha çətin işdir. Hətta ailə maddi çətinliklər hiss etsə belə, bir uşaqla kifayətlənmək olmaz. Tək uşaq tezliklə ailənin mərkəzi simasına çevrilir. Ata və ananın bu uşağa göstərdikləri qayğı, adətən, faydalı normadan artıq olur. Belə hallarda valideynin məhəbbəti müəyyən əsəbiliklə fərqlənir.Tək uşağın xəstəliyi, yaxud hər hansı problemi ailəyə çox ağır təsir göstərir və onu rahatlıqdan məhrum edir. Çox vaxt yeganə uşaq öz müstəsna vəziyyətinə alışır və ailədə əziz bir adama çevrilir.Valideynlər uşağa olan məhəbbət və qayğılarını müəyyən çərçivə daxilində saxlaya bilmirlər, beləliklə, istər-istəməz xudpəsənd bir adam tərbiyə edilir".(2) Böyük ailədə isə uşaq daim kollektiv içərisində olduğundan, fərdiyyətçilik meylindən uzaqlaşır. Beləliklə, valideynlərə verilən mühüm pedaqoji tələblər aşağıdakılardır:

- uşaqlarin hərəkət və davranışlarının həqiqi motivlərinin öyrənilməsi;
- hörmət və tələbkarlıqda daim ölçü hissinin gözlənilməsi;
- uşaqlara münasibətdə hər bir addımın, hərəkətin mümkün nəticələrinin hərtərəfli nəzərə alınması;
- uşağın şəxsi ləyaqətinə dərin hörmət və inamın gözlənilməsi;
- uşağın yaş və fərdi xüsusiyyətlərinin, hərəkətlərinin xarakterinə müvafiq, düzgün tələbkarlıq tonunun seçilməsi.

Pedaqoji taktın, ümumiyyətlə, müvəffəqiyyətli ailə tərbiyəsinin mühüm zəmini uşaqların yaş və psixoloji xüsusiyyətlərinin nəzərə alınması, onların valideynlər tərəfindən öyrənilməsidir.Beləliklə, valideynlərin pedaqoji taktı məktəbəqədər yaşlı uşağın şəxsiyyət kimi yetişməsində, onun harmonik inkişafında əhəmiyyətli rol oynayır.

**Məqalənin elmi yeniliyi**. Məqalədə uşağın şəxsiyyət kimi formalaşmasında valideynlərin pedaqoji taktının rolu haqqında danışılır və elmi cəhətdən əsaslandırılır.

**Məqalənin praktik əhəmiyyəti**. Məqalədə qeyd olunur ki, pedaqiji takt müvəffəqiyyətli ailə tərbiyəsinin mühüm zəminidir və bu zəmindən həm valideynlər, həm də müəllimlər bəhrələnəcəklər.

**Ədəbiyyat**

1. Y.Ş.Kərimov.Uşaq məktəbə gedir. Bakı: "Nağıl evi", 2002.
2. A.S.Makarenko. Seçilmiş pedaqoji əsərləri. Bakı: "Maarif", 1983.
3. Y.A.Komenski. Seçilmiş əsərləri. "Bakı", 1961.
4. F.İbrahimov., R.Hüseynzadə. Pedaqogika. "Bakı", 2012.
5. Məktəbəqədər təhsilin proqramı (kurikulumu). 12 iyul, 2012.
6. Sadıqova T.B. Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkili. Bakı: "Nərgiz", 2010.
7. Sadıqova T.B., Həsənova S. H., Məmmədova K . R .Uşaq bağçasının ailə ilə birgə işi. Bakı, 2012.

**Rəyçi: prof.Y.Ş.Kərimov**
**E-mail: t.sadiqova 2013@ya.ru**
**Redaksiyaya daxil olub: 01.07.2019**